# Tarixi zəfər, dövlətçilik iradəsi və müstəqillik əzmi

**Azərbaycan Respublikasının Dövlət Gerbi müstəqilliyimizin rəmzi olaraq böyük əhəmiyyət daşıyır. Gerbin təsvirində şərq qalxanı, onun üzərində isə palıd budaqlarından və sünbüllərdən ibarət qövs yer alır. Qalxanın mərkəzində Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini əks etdirən fon üzərində səkkizguşəli ulduz və bu ulduzun ortasında alov təsviri mövcuddur. Rəngli təsvirə görə, ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər isə sarı rəngdədir. Bundan əlavə, qalxanın və ulduzun sağanaqları, həmçinin qalxanın düymələri və palıd qozaları qızılı rəngdə hazırlanmışdır.**

Dövlət gerbinin layihəsi 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlansa da, o illərdə onun qanunvericilik səviyyəsində təsdiqi və qəbul edilməsi mümkün olmayıb.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası dövlət gerbinin və möhürünün təsvirinin hazırlanması üçün iki dəfə müsabiqə elan edilməsi barədə qərar qəbul etmişdir. İlk qərara əsasən, 1919-cu il martın 23-də "Azərbaycan" qəzetində dövlət gerbi və möhürü layihələrinin hazırlanması məqsədilə müsabiqə elan edilmişdi. Hökumət bu layihələrin ən yaxşısını seçmək üçün mükafatlar təsis etmişdi. "Ən yaxşı gerb layihəsi" üçün 1000 rubl, möhür layihəsi üçün isə 500 rubl məbləğində mükafat müəyyən olunmuşdu. Müsabiqənin müddəti həmin ilin aprelin 20-dək davam etməli və prosesə nəzarət Poçt və Teleqraf Nazirliyinə həvalə edilmişdi. Lakin müsabiqə uğursuz nəticələnmiş və uyğun bir gerb layihəsi qəbul edilməmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası 1920-ci il yanvarın 30-da "Azərbaycan Respublikasının gerbi və möhürünün, milli himninin və hərbi ordenlərinin layihələrinin hazırlanması haqqında" yeni bir qərar qəbul etdi. Qərarın birinci maddəsində hərbi ordenlərin hazırlanması ilə bağlı müsabiqənin Hərbi Nazirlik tərəfindən elan edilməsi nəzərdə tutulmuşdu. İkinci maddədə isə milli himnin, dövlət gerbi və möhürünün layihələrinin hazırlanması üçün müsabiqə keçirilməsi Xalq Maarif Nazirliyinə tapşırılmışdı. Bu qərara əsaslanaraq Xalq Maarif Nazirliyi 1920-ci il fevralın 19-da "Azərbaycan" qəzetində dövlət gerbi və möhürünün təsvirinin, həmçinin milli himnin mətninin layihələrinin hazırlanması ilə bağlı müsabiqə elan etdi. Müsabiqə şərtlərinə görə, ən yaxşı milli himnin mətni və musiqisi üçün 50 min rubl, gerb və möhürün ən yaxşı təsvirinə görə isə 25 min rubl mükafat müəyyən edilmişdi. Layihələr Xalq Maarif Nazirliyinə təqdim edilməli və 28 may 1920-ci ildə Milli İstiqlalın ikinci ildönümünədək təsdiq edilməli idi. Lakin 1920-ci il aprelin 27-də baş verən rus sovet istilası və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu planların reallaşmasına mane oldu.

Müasir Dövlət Gerbi Azərbaycan Xalq Cümhuriyyəti dönəmində yaradılmış gerb layihəsinin müəyyən dəyişikliklərlə yenidən həyata keçirilmiş formasını əks etdirir. Azərbaycanın yeni Dövlət Gerbinin hazırlanması və təsdiqi məsələsi yenidən 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müzakirəyə çıxarıldı. Üçrəngli milli bayrağın bərpası və qəbul edilməsiylə yanaşı, Dövlət Gerbi və Dövlət Himninin təsdiqi üçün müsabiqə elan olunması qərara alındı. Bu məsələlərin kompleks şəkildə həll edilməsi üçün Azərbaycan Respublikasının ovaxtkı Ali Sovetinə müraciət edildi.

Azərbaycan Respublikası Ali Soveti 1991-ci il 5 fevral tarixində qəbul etdiyi qərarla üçrəngli Dövlət Bayrağını bərpa edib qəbul etməklə yanaşı, "Azərbaycan Respublikasının Dövlət Gerbinin ən yaxşı təsviri üçün müsabiqə elan olunması haqqında" xüsusi qərar qəbul etdi. Bu qərara əsasən, Dövlət Gerbinin ən yaxşı təsviri üçün 5 min manat məbləğində mükafat müəyyənləşdirildi və müsabiqənin nəticələrinin yekunlaşdırılması respublika Ali Sovetinin Rəyasət Heyətinə tapşırıldı. 1991-1992-ci illərdə müxtəlif kütləvi informasiya vasitələrində çoxsaylı yeni gerb layihələri dərc olundu. 1993-cü ilin əvvəlində isə Azərbaycan Respublikasının Milli Məclisində həmin layihələr və eyni zamanda 1919-1920-ci illərdə hazırlanan gerb layihəsi müzakirə edildi. Müzakirələrdən sonra Milli Məclis, 1919-1920-ci illərdə hazırlanmış gerb layihəsini müəyyən dəyişiklik və təkmilləşdirmələrlə Azərbaycan Respublikasının Dövlət Gerbi kimi təsdiq etdi. Gerbin müəllifi rəssam Füzuli Axundov idi.

Dövlət gerbi xalqımızın tarixi irsini və milli dəyərlərini özündə əks etdirən xüsusi bir rəmzdir. "Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında" Qanun 19 yanvar 1993-cü il tarixində qəbul olunaraq, Konstitusiya Qanunu ilə təsdiqlənib. Gerbin istifadəsi qaydalarını tənzimləyən "Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında Əsasnamə" isə 23 fevral 1993-cü ildə təsdiq edilib. Daha sonra "Əsasnamə"yə müxtəlif dövrlərdə - 2 iyul 2002-ci il, 24 dekabr 2004-cü il və 3 mart 2006-cı il tarixlərində dəyişikliklər və əlavələr edilib.

Dünya heraldikasında dövlət gerblərinin qalxan üzərində təqdim olunması geniş yayılmışdır. Qalxan əsrlər boyunca xalqlar üçün həm müdafiə vasitəsi, həm də milli rəmzləri ifadə edən mühüm bir atribut olub. Şərq xalqlarının mədəniyyətində isə qalxan xüsusi əhəmiyyət kəsb edir. Şərq döyüş sənətində qalxan, dairəvi forması ilə qəhrəmanlıq və gücün simvolu hesab edilir.

Şərq qalxanının altında təsvir olunan palıd yarpağı möhkəmliyi, sünbül isə bərəkəti simvollaşdırır, xalqımızın gücünü və zənginliyini nümayiş etdirir. Səkkizguşəli ulduzla bağlı müxtəlif izahlar mövcuddur, və bunlardan biri də dini baxışa əsaslanır: səkkizguşə, cənnətin səkkizinci pilləsini - ul-Aləmi təmsil edir. Bununla yanaşı, riyaziyyatda 8, sonsuzluq və əbədi inkişafın simvoludur. Şumer mədəniyyətində, Tufan sonrası Günəşin yeddinci günün sonunda yeri isitməyə başlaması, bu simvolların əbədiyyət və təzələnməni ifadə etməsi ilə bağlı mənalı bir əlaqə qurur.

Bu gerb yalnız bir rəmz deyil, Azərbaycanın gücünü, tarixini, və müasir zamanla üzləşən yenilikçi ruhunu əks etdirən bir simvoldur. O, milli kimliyimizin hər bir elementini özündə yaşadır və xalqımızın dərin mənəvi bağlarını, əzmini və irəliləyişə olan arzusunu ortaya qoyur.

Gerbdəki səkkizguşəli ulduz, çox zəngin və çoxşaxəli bir mənaya sahibdir. Bəzi izahlara görə, bu ulduz, islam dünyasında geniş istifadə olunan ay təqviminin təsirini əks etdirir.

Digər bir nəzəriyyə isə bu səkkizguşəli ulduzun, "Odlar Yurdu" adının səkkiz hərflə yazılışına işarə etdiyini irəli sürür. Bu, Azərbaycan tarixini və mədəniyyətini təmsil edən bir simvol olaraq gerbdəki yerini alır.

Bundan əlavə, bəzi mənbələrdə bu səkkizguşəli ulduzun türk xalqlarının səkkiz müxtəlif qolunun birləşməsini və vahid güc olaraq birləşməsini ifadə etdiyindən bəhs edilir. Bu simvol milli və mədəni həmrəyliyin, birliyin və gücün rəmzi olaraq, həm də türk xalqlarının tarixdəki böyük yerini əks etdirir. Səkkizguşəli ulduz yalnız gerbin bir hissəsi deyil, həm də türk dünyasının zəngin ənənələrinin və mədəni irsinin simvoludur. Bu ulduz keçmişdən bu günə qədər davam edən bir əlaqənin, birliyin və əzmin işarəsidir.

Son illər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının tarixi zəfəri, dövlətçilik iradəsi və müstəqillik əzmi işğaldan azad edilmiş ərazilərdə öz əksini tapıb. İndi bu torpaqlarda Dövlət Bayrağımızla yanaşı, Dövlət Gerbimiz də öz layiqli yerini alıb. 2020-ci ildə əldə edilən tarixi zəfər sayəsində Qarabağ və Şərqi Zəngəzur bölgələrində yenidən Azərbaycan dövlətçiliyinin simvolları bərqərar olub. Dövlət Gerbinin Xankəndidə, Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda və digər azad edilmiş torpaqlarda xalqımızın böyük tarixi qələbəsini təcəssüm etdirir.

**Musa BAĞIRLI,**
**"Respublika".**